Əl işdən soyumaz, ürək arzudan...



# QƏBƏLƏ

ictimai-siyasi qəzet

№ 9-11 (7586-7588) 1933-cü ildən nəşr olunur Çərşənbə axşamı, 25 fevral 2020-ci il. news@qebele-ih.gov.az

**Xüsusi buraxılış**

# Qəbələnin sosial-iqtisadi inkişafı möhkəm zəminə söykənir



*Mənim həyat amalım bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mənəvi inkişafına xidmət olmuşdur.*

**Heydər ƏLİYEV.**

*Qəbələ qədim Qafqaz Albaniyası dövlətinin paytaxtı olmuşdur. Bu şəhərin çox böyük tarixi var. Biz indi Qəbələnin tarixi simasını saxlamaqla şəhərə, rayona yeni nəfəs veririk. Yeni inkişaf konsepsiyası icra edilir. Hər dəfə Qəbələdə olanda mən gördüyüm bu inkişafı qiymətləndirirəm və buna sevinirəm.*

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**



*2019-cu ildə də Qəbələdə sosial-iqtisadi sahədə inkişaf uğurla davam etmiş, əlamətdar hadisələr baş vermişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ötən ilin oktyabr ayında rayonumuzda olmuş, görülmüş işləri qiymətləndirmiş, qarşıya yeni vəzifələr qoymuşdur.*

*Rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayevin bu günkü müşavirədə dinləniləcək məruzəsində 2019-cu ildə sosial-iqtisadi sahədə görülmüş işlərə və qarşıda duran vəzifələrə dair məlumatı dinləniləcək, müzakirələr aparılacaq, görüləcək işlər müəyyənləşdiriləcəkdir.*

*Qəzetimizin bu nömrəsində Səbuhi Abdullayevin məruzəsini oxucularımıza təqdim edirik.*

## 2019-cu ildə sosial-iqtisadi inkişafın yekunlarına və qarşıda duran vəzifələrə dair Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayevin hesabat MƏRUZƏSİ

**Hörmətli müşavirə iştirakçıları, əziz qonaqlar! Xanımlar və cənablar!**

Yanvarın 13-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin yanında 2019-cu ilin yekunlarına həsr olunmuş müşavirə keçirilmişdir.

Müşavirədki giriş nitqində cənab Prezident ötən ilin əvvəlindən qarşıya qoyulan bütün vəzifələrin uğurla icra edildiyini diqqətə çatdırmışdır.

Dövlət başçısı ölkənin həm iqtisadi, həm siyasi, həm də sosial sahələrini əhatə edən məsələlərə toxunaraq görülmüş işləri xüsusi qeyd etmiş, yeni tövsiyələrini və tapşırıqlarını vermişdir.

Müşavirədə "Azərbaycan sabitlik şəraitində yaşamışdır. Sabitlik hər bir ölkənin inkişafı üçün əsas şərtdir" - fikirlərini söyləyən cənab İlham Əliyev ölkədə sabitliyin təminatçısının xalq-iqtidar birliyi olduğunu xüsusi qeyd etmişdir.

Dövlətimizin başçısı iqtisadiyyatın şaxələndirilməsi siyasətinin uğurla həyata keçirildiyini, elmi əsaslara söykənən iqtisadiyyatımızın neft kapitalını insan kapitalına

(Ardı 2-ci səhifədə).

*Ölkədə gedən hər tərəfli yüksəlişdə qəbələlilərin də fəal rolu vardır.*



*Cənab Prezidentimiz İlham Əliyevin Azərbaycanın hər bir bölgəsi kimi Qəbələyə də diqqət və qayğısı gündən-günə artır. Qəbələdə turizm infrastrukturunun genişləndirilməsi məqsədi ilə çox nəhəng layihələrin həyata keçirilməsi davam edir.*

*Bütün bu tədbirlər bir məqsədə xidmət edir: Əhalinin rifah halını daha da yaxşılaşdırmaq.*

**Fəttah HEYDƏROV,**
**Azərbaycan Respublikası Ağsaqqallar Şurasının sədri, Milli Məclisin deputatı.**